# HEYDƏR ƏLİYEVİN

## Akademik İsa Həbibbəylinin tədqiqatlarında



*Salatın ƏHMƏDLİ,*
*dosent*

*(Əvvəli ötən saylarımızda)*

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin “milli dövlətçilik təliminin, sınaqlardan çıxmış siyasi kursunun layiqli davamçısı” bilir. Heydər Əliyevin siyasi kursunu şərh edir: “Heydər Əliyev siyasi kursu - Azərbaycan dövlətinin ümummilli inkişaf strategiyasının nəzəri-ideoloji əsasını təşkil edir. Heydər Əliyev təlimi - ölkəmizin və xalqımızın dirçəliş və tərəqqi yolunun kompasıdır. Heydər Əliyev fəlsəfəsi Azərbaycan idealının özünütəsdiq dialektikasından ibarətdir. Heydər Əliyev yolu - Azərbaycan dövlətinin və xalqının əbədiyyət yoludur”.

Heydər Əliyev siyasi kursunu bütün incəliklərinə qədər mənimsəmiş İlham Əliyevlə müqayisə edilə biləcək ikinci bir siyasi şəxsiyyət görmür: “Həyatının, mövqeyinin ən müxtəlif məqamlarında Heydər Əliyevin çoxcəhətli fəaliyyətini yaxından izləmək, yaşantılarını dərindən duymaq, siyasi gedişlərinin, necə deyərlər, alt yapısının mahiyyətini öyrənmək baxımından bu böyük şöhrətə malik olan mötəbər ailənin üzvü kimi İlham Əliyevin imkanları hamıdan - hətta ulu öndərin ən yaxın məsləkdaşlarından da çox olmuşdur”.

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunu olan İlham Əliyevin həm sovet, həm də müstəqillik dövründə mühim dövlətçilik məktəbi keçdiyini, Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Respublika Olimpiya Komitəsinin Prezidenti, millət vəkili, Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinin rəhbəri, nəhayət, Baş nazir kimi məsul vəzifələrdə şərəfli və məsuliyyətli yol keçdiyini, böyük siyasi təcrübə qazandığını, Avropa dillərində sərbəst və sərrast danışmaq imkanlarının yüksək nailiyyətlər əldə etməsinə geniş imkan yaratdığını qeyd edən alim bu fikirdədir ki, “İlham Əliyev görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik və siyasət akademiyasını fərqlənmə diplomu ilə bitirmişdir. Həyat təsdiqlədi ki, İlham Əliyev ümumilli liderimiz Heydər Əliyevdən aldığı təlimi gerçəkləşdirməkdə də hamıdan fərqlənir. Əvvəla, o, Heydər Əliyev siyasi kursuna dərin, birmənalı sədaqətində, ikincisi isə həmin sınaqlardan çıxmış siyasi kursu qətiyyətlə, dönmədən, yaradıcılıqla, ardıcıllıqla müasirlik işığında həyata keçirməkdə fərqli, üstün imkanlara və böyük potensiala, qeyri-adi enerjiyə və istedada malikdir”. Azərbaycan xalqının Prezident İlham Əliyevin simasında ilk növbədə əsl, həqiqi, dönməz Heydər Əliyevi gördüyünü, onu yüksək dəyərləndirdiyini, İlham Əliyevin prezident olduğu müddətdə həyata keçirilən işlər, qazanılan nailiyyətlər (Azərbaycan iqtisadiyyatı, həyata keçirilən möhtəşəm layihələr - Bakı-Tbilisi-Ceyhan neft boru xətti, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars-Naxçıvan dəmir yolu, hər gün gözəlləşən və müasirləşən Azərbaycan cəmiyyəti) “Heydər Əliyev siyasi kursunun davam etdirilməsinin real bəhrələri, sanballı töhfələri” kimi dəyərləndirilir: “Bütün bunlar Prezident İlham Əliyevin timsalında inanılmış siyasi kursun ardıcıllıqla və qətiyyətlə davam etdirilməsinin nələrə qadir olduğunun, ölkəmizi hansı səviyyəyə gətirib çatdıra biləcəyinin gerçək təzahürüdür. Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi təlimini yeni dövrün və müasir Azərbaycanın reallıqları ilə daha da zənginləşdirən siyasi xadimdir”.

Akademik İsa Həbibbəyli araşdırmalarının nəticəsinə əsasən gəldiyi qənaət budur: “Heydər Əliyev siyasi kursu, üstəgəl yeni dünyanın, beynəlxalq aləmin reallıqları və üstəgəl müstəqil Azərbaycanda yeni dövrün meydana çıxardığı gerçəkliklər və dəyişikliklər bərabərdir İlham Əliyev”,“İlham Əliyev yeni dünya düzənində Azərbaycana baş ucalığı gətirən ən qüdrətli liderdir”. “Müasir Azərbaycanın yeni tarixi mərhələdəki yeni həyatı Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin nəticəsidir”.

Bakı ilə yanaşı, Azərbaycan regionlarının böyük sürətlə və hər tərəfli şəkildə inkişaf etdirilməsi hərəkatının başında dayanan İlham Əliyevi bu mənada “yeni Azərbaycan adlı möhtəşəm əsərin qüdrətli yaradıcısı” kimi dəyərləndirir: “İlham Əliyev - analitik düşüncə sahibi kimi dərin məntiqə və aydın təfəkkürə malik olan, siyasi reallıqları nəzəriyyə ilə vəhdətdə ifadə edən mükəmməl siyasi xadimdir. O, XXI əsrin yeni tipli siyasi lideridir”.

“Müstəqil Azərbaycanın yeni həyatının, təzə çağının müəllifi Prezident İlham Əliyevdir”, - deyir: “İlham Əliyev - yeni mərhələdə Azərbaycan ölkəsinin və cəmiyyətimizin müasirləşdirilməsinin baş memarıdır. İlham Əliyev - yeni siyasi təfəkkürə və yeni, yaradıcı yanaşmaya malik novator dövlət xadimidir. Xalq amili, milli mənafe, ölkə maraqları İlham Əliyev üçün müqəddəs meyarlardır. İlham Əliyev - yaxın və uzaq gələcəyi, bütün reallıqları incəliklərinə qədər görən və məharətlə proqnozlaşdırmağı bacaran dövlət xadimidir”.

Ölkəmizin və xalqımızın bundan sonra da “İlham Əliyev kimi geniş formada, böyük miqyasda düşünən, xalqına və dövlətinə ürəkdən bağlı olan, yüksək səviyyəli və enerjili dövlət xadiminə” ciddi ehtiyacı olduğunu vurğulayan alim Gürcüstan hadisələrinin Cənubi Qafqazda doğurduğu mürəkkəb ictimai-siyasi şəraiti yada salır, “İlham Əliyevin tutduğu tarazlaşdırma mövqeyi Azərbaycanın bu qarışıq prosesdən alnıaçıq çıxmasına” münbit şərait yaratdığını, onun “incə və müdrik siyasəti”nin Azərbaycanın Qafqazdakı hadisələrin həlli baxımından söz sahibi olan dövlətə çevrilməsi ilə nəticələndiyini vurğulayır: “İndi Azərbaycanın yaxından iştirakı, razılığı təmin olunmadan Qafqaz regionunda heç bir problemin həllindən danışmaq olmaz. Eyni sözləri Azərbaycanı əhatə edən digər Şərq tipli dövlətlərə də şamil etmək olar. Belə yüksək imici ölkəmizə Prezident İlham Əliyev qazandırmışdır.

Bütün bunlara görə Azərbaycan xalqı Prezident seçkisi üçün artıq özünün qəti seçimini etmişdir: “İlham Əliyev və yalnız İlham Əliyev!”

Artıq istifadəyə verilən, “əfsanədən həqiqətə çevrilmiş Bakı-Tbilisi-Ceyhan neft kəməri Heydər Əliyevlə başlanıb İlham Əliyevlə tamamlanan nəhəng magistral” olduğu fikrindədir: “Bakı-Tbilisi-Ceyhan Azərbaycanda aparılan siyasi və iqtisadi siyasətin möhtəşəm nəticəsi, böyük bəhrəsidir. Bu nəhəng magistral boru xətti eyni zamanda Azərbaycan diplomatiyasının da uğurudur. Respublikamızın iqtisadi inkişafı ilə bir sırada ölkəmizin beynəlxalq aləmdəki yerinin müəyyən olunmasında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin əvəzsiz rolu vardır. Bu böyük, təkrarsız boru xətti İlham Əliyevin rəhbərlik etdiyi müstəqil Azərbaycan dövlətinin dünya ictimaiyyəti qarşısındakı uğurlu hesabatıdır. Bu layihə, eyni zamanda, Azərbaycan neft elminin, mühəndis-texniki təcrübəsinin də nailiyyətidir. Obrazlı şəkildə belə deyə bilərik ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri Heydər Əliyev dühasının möhtəşəm proqramı, İlham Əliyev iqtidarının real əsəridir. Bu, ölkəmizin Prezidenti cənab İlham Əliyevin genişmiqyaslı, beynəlxalq əhəmiyyətə malik olan layihələri həyata keçirməyə rəhbərlik etmək əzminin və bacarığının konkret əməli təzahürüdür. Bu, İlham Əliyevin illərdən bəri apardığı uğurlu neft siyasətinin qanunauyğun məntiqi yekunudur. Bakı-Tbilisi-Ceyhan «Azərbaycanın Xəzər nefti» adlı iri həcmli və sanballı monoqrafik elmi əsərin müəllifi olan Azərbaycan Prezidentinin uzaq görən elmi ideyalarının gerçəkliyini təsdiqləyən əzəmətli neft-sənaye kompleksidir. Nəhayət, Bakı-Tbilisi-Ceyhan neft kəməri İlham Əliyevə məxsus kompleks yanaşma metodunun siyasi, diplomatik, iqtisadi və elmi yanaşmaların konkret əməli nəticəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyədə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin rəsmi açılış mərasimindəki nitqində dövlətlərarası iş birliyi sayəsində meydana çıxmış bu möhtəşəm layihənin çox cəhətli yanaşma nəticəsində başa çatdırıldığını bəyan etdiyini («Bakı-Tiflis-Ceyhan neft kəməri transmilli layihədir. Dünyanın ən böyük enerji layihəsidir və onun uğurla başa çatması bütün bölgəyə yeni nəfəs gətirəcəkdir, burada yeni imkanlar yaradacaqdır. İnsanlarımız daha da yaxşı yaşayacaqlar. Çünki bundan əldə olunan gəlir... bölgəmizin iqtisadi potensialına, rifah halının yaxşılaşmasına kömək edəcəkdir». - Bax: “Azərbaycan” qəzeti, 13 oktyabr 2005.) bildirən İsa Həbibbəyli öz qənaətini bölüşür: “Fikrimcə, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars-Naxçıvan dəmir yolu kimi beynəlxalq səciyyə daşıyan irimiqyaslı layihələr də ölkəmizin Prezidenti İlham Əliyevin cəmiyyət həyatına, beynəlxalq münasibətlərə «çox geniş aspektlərdən» yanaşmasının sayəsində artıq reallaşmaqdadır”.

Dağlıq Qarabağ probleminin həlli prosesində də Prezident İlham Əliyevin çoxaspektli yanaşmalarını, ölkə başçısının məsələnin sülh yolu ilə, dialoq vasitəsilə həll ediləcəyinə inamını ifadə etməsini, probleme münasibətdə siyasi vasitələri, diplomatik yanaşmaları önə çəkdiyini vurğulayır.

Xüsusən, 14 mart 2008-ci ildə, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət» adlı mühüm bir sənədin qəbul edilməsi və ölkəmizin mövqeyinin beynəlxalq birlik tərəfindən müdafiə olunmasını İlham Əliyevin rəhbərliyi ilə aparılan “genişmiqyaslı, çoxaspektli işin, düşünülmüş ardıcıl siyasətin real qələbəsi” bilir.

Avropa Şurasının Ermənistanı təcavüzkar dövlət kimi tanıması, BMT-nin Azərbaycanın ərazi bütövlüyünü qəbul etməsi, Müstəqil Dövlətlər Birliyi məkanında ölkəmizin söz sahibinə çevrilməsi “qlobal miqyasda məqsədyönlü şəkildə aparılan etimad siyasətinin real bəhrələri”, Azərbaycanın “sivilizasiyalararası dialoqun əsas mərkəzlərindən biri statusu qazanması”nı əldə edilmiş siyasi etimadın nəticəsi bilir: “Səmərəli dialoq, qarşılıqlı əməkdaşlıq, düşüncə mədəniyyəti, tarazlaşdırılmış inteqrasiya və müstəqil dövlət siyasəti yeritmək kimi prinsiplər bu etimad siyasətinin fəlsəfi əsasını təşkil edir”.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə bağlı olan körpülərin əhəmiyyətini vurğulayır: «Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün Tədbirlər planının təsdiq edilməsi haqqında»kı 2 fevral 2006-cı il tarixli sərəncamının nəticələrini açıqlayır. 9 körpünün tikilməsinin nəzərdə tutulduğunu, bunlardan yeddisinin artıq istifadəyə verildiyini bildirən İsa Həbibbəyli bunlar “Ölkəmizin Prezidentinin ölkəmizə bəxş etdiyi real körpülərdir və böyük əhəmiyyətə malikdir. Bununla belə, yeni tipli dövlət xadimi və bacarıqlı siyasətçi kimi İlham Əliyevin beynəlxalq münasibətlər, ölkələr, xalqlar, tərəflər, tərəfmüqabillər arasında formalaşdırdığı «körpülər» müstəqil Azərbaycan üçün həyatdakı infrastruktur mənasında olan körpülərdən heç də az əhəmiyyət kəsb etmədiyini, hətta bəzi məqamlarda daha üstün imkanları ilə diqqəti cəlb edə biləcəyini vurğulayır. Fərqi yoxdur, həyatda, yaxud böyük siyasət sahəsində körpü salmaq inkişafa, dirçəlişə, tərəqqiyə xidmət deməkdir. Ancaq bir fərqi var ki, həyatda real olaraq körpü salmağı bacarmayanlar böyük siyasətdə və dövlət idarəçiliyində də həmin sahədə əsaslı müvəffəqiyyət qazana bilmirlər. Ölkəmizin Prezidenti İlham Əliyev artıq hər iki istiqamətdə - həm həyatda, həm də siyasətdə körpü salmaq kimi məsuliyyətli və şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacardığını isbata çatdırmışdır. Həyatda salınan, inşa edilən real körpülər İlham Əliyevin xalqımızın rifahına və ölkəmizin inkişafına istiqamətlənmiş ölkədaxili siyasətinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. Böyük siyasət yollarında salınan körpülər də qitələri və materikləri əhatə etməsinə baxmayaraq,

# DÖVLƏTÇİLİK TƏLİMİ

yenə də Azərbaycan naminədir, Azərbaycanın tərəqqi edib çiçəklənməsi üçündür. Bu mənada möhtərəm Prezidentimizin həyatdakı və böyük siyasətdəki körpü salmaq siyasəti, körpü yaratmaq strategiyası xalqımızın və müstəqil dövlətimizin daha parlaq gələcəyinə hesablanmış vahid proqramın üzvi tərkib hissəsidir və biri digərini tamamlayır", - deyir.

Sovet hökuməti illərində Bakıda mövcud olan iki körpü (eni 10-12 metr, uzunluğu 60-70 metr olan Bağırov və Qaqarin körpüsü salınmışdı) yada salınır və Azərbaycanda müstəqillik dövrünün ilk böyük körpüsü Araz çayı üzərində salınmış Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyətini əlaqələndirən Sədərək-Araliq Dilucu körpüsü olduğu bildirilir. 28 may 1992-ci ildə istifadəyə verilən həmin körpünü "iqtisadi-siyasi əhəmiyyətinə və həcminə görə sovet dövründə Bakı şəhərində salınmış hər iki körpüdən müqayisə edilməyəcək qədər üstün və əhəmiyyətli" olduğunu yazır. Görkəmli dövlət xadimi Heydər Əliyevin "siyasi uzaqgörənliyinin və qətiyyətinin sayəsində" ərsəyə gələn Sədərək-Dilucu körpüsünün "ilk növbədə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan, çətin blokada şəraitinə salınmış Naxçıvan Muxtar Respublikasının xilası üçün" düşünüldüyünü, həm də həmin körpünün Azərbaycan Respublikasının qardaş Türkiyə ilə əlaqələrinin yaranmasına və inkişaf etdirilməsinə də uğurla xidmət etdiyini, Sədərək-Dilucu körpüsünün "Azərbaycanın Avropa qapısı kimi də xüsusi əhəmiyyətə" malik olduğunu vurğulayır. Sədərək-Dilucu körpüsünün rəsmi açılış mərasimində dünyanın iki nəhəng siyasətçisi və görkəmli dövlət xadiminin - Heydər Əliyevlə Süleyman Dəmirəlin iştirakını, hər iki dövlət xadiminin həmin tarixi mərasimdəki parlaq nitqi və bəyanatlarının "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikasının taleyində 1921-ci ilin məşhur Qars müqaviləsi qədər əhəmiyyətli" olduğunu söyləyir. "Xüsusi tarixi əhəmiyyət daşıyan Sədərək-Dilucu körpüsü ilə Azərbaycanda geniş mənada müstəqillik dövrünün körpü siyasətinin əsası qoyulmuşdur" - fikrində olan İsa Həbibbəyli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çoxcəhətli körpü strategiyasını "ümummilli liderimiz tərəfindən müəyyən olunmuş həmin düşünülmüş siyasətin yeni tarixi şəraitdəki uğurlu davamı" kimi qiymətləndirir. Bakıda tikilən möhtəşəm körpülərlə yanaşı, 17 oktyabr 2007-ci ildə Araz çayı üzərində salınan, Naxçıvanla İran İslam Respublikasını əlaqələndirən Şahtaxtı-Poldəşt körpüsünün əhəmiyyətini qeyd edir. "Beləliklə, Sədərək-Dilucu körpüsü vasitəsilə Türkiyədən keçməklə Avropa ilə əlaqələndirilən Azərbaycan Şahtaxtı-Poldəşt körpüsü ilə İran İslam Respublikası tranzit ölkə olmaqla Şərq ölkələri ilə nəqliyyat əlaqəsi yaratmaq imkanı qazanmışdır. Həmçinin Sədərək-Dilucu və Şahtaxtı-Poldəşt körpüləri birlikdə Naxçıvan Muxtar Respublikasının timsalında Azərbaycanın çox səmərəli Şərq-Qərb nəqliyyat dəhlizinə çevrilməsini təmin etmişdir. Bu iki möhtəşəm yol qovşağı Heydər Əliyev-İlham Əliyev siyasətini də bir daha qovuşdurmuşdur" - deyir.

Bakı şəhərində istifadəyə verilmiş möhtəşəm körpülərin Azərbaycan tarixinə "İlham Əliyev körpüləri kimi" daxil olmasını, bu nəhəng körpülərin ən kiçik olanının uzunluğunun 600 metrdən çox olması, bir çoxunun hətta 2 kilometrə qədər gəlib çatması, hər şeydən əvvəl, müstəqil Azərbaycan dövlətinin iqtisadi qüdrətinin, geniş potensial imkanlarının real göstəricilərindən biri olması, paytaxtdakı "İlham Əliyev körpüləri"nin "əsl memarlıq abidələri" olması, "Bakıya xüsusi gözəllik" gətirməsi, bu körpülərin "müasir şəhərsalma baxımından da mühim əhəmiyyəti" qabardılır: "İlham Əliyev körpüləri ilə Azərbaycanda memarlığın və inşaat işinin xüsusi bir istiqaməti - körpüsalanlar: mühəndis-texnik işçiləri, yol nəqliyyatı ustaları, nəqliyyat-layihə mərkəzləri böyük sürətlə formalaşma prosesi keçirməkdədir. Son vaxtlar yerli şirkətlərin işə cəlb olunması ilə yeni körpülər ölkəmizdə özəl sektorun da inkişafında təkanverici amilə çevrilmişdir. Nəhayət, körpü tikintisi həm də məsrəfli, sərfəli, çoxaspektli iş yerləridir. Ən nəhayət və bəlkə də ən zərurisi Bakı şəhərinin yüksək dünya standartlarına cavab verən körpüləri axır zamanlarda xüsusilə kəskinləşmiş tıxaclar probleminin həlli sahəsində atılmış ciddi addımlardır. Bütün bunların hamısı isə ölkəmizin Prezidenti cənab İlham Əliyevin nəqliyyat, şəhərsalma və iqtisadiyyat sahəsindəki məqsədyönlü siyasətinin real bəhrələridir. Məhz bu düşünülmüş, əsaslandırılmış dövlət siyasətinin sayəsində paytaxtımız Bakı hazırda müasir körpülər, körpü-abidələr şəhəri kimi daha yeni, cəlbedici və əzəmətli görkəm almışdır".

İ.Əliyevin beynəlxalq münasibətlərdə «körpüsalma» siyasətini diqqətə çəkən alim Azərbaycan Respublikasının Avroatlantik məkana inteqrasiyasını, Avropa ölkələri ilə yaradılmış və möhkəmlənən əlaqələri, Yaxın və Uzaq Şərqdə aparılan siyasəti bunun məntiqi nəticəsi bilir.

Eyni zamanda respublikamızın dünyada mədəniyyətlərarası dialoqa, dinlərarası tolerant düşüncəyə və siyasətə açıq olmasını da "sivilizasiyalararası dialoqun üzvi tərkib hissəsini" təşkil etdiyini qeyd edən alim "geniş mənada Azərbaycanın xarici siyasətinin uğurları ölkəmizdə salınmış siyasət körpülərinin möhkəm, davamlı və etibarlı olmasının göstəricisidir. Eyni zamanda, region ölkələri, xüsusən, qonşu dövlətlərlə yaxın və etibarlı münasibətlərin möhkəmləndirilməsi bu sahə üzrə ixtisaslaşmış «körpülərin» möhkəm təmələ, təminatlı bünövrəyə söykəndiyini nümayiş etdirir. Səmərəli dialoq, qarşılıqlı əməkdaşlıq və etimad, düşünülmüş inteqrasiya və müstəqil dövlət siyasəti yeritmək İlham Əliyevin siyasət körpülərinin ana xətlərini, əsas prinsiplərini təşkil edir. Körpü salmaqda yerli inşaat materiallarından istifadəyə üstünlük verilməsi kimi sadə və əhəmiyyətli fakt şəhərsalma ilə yanaşı, rəmzi mənada siyasi körpülərin də təməlində milli dəyərlərin, ölkəmizin maraqlarının, müstəqillik düşüncəsinin əsası kimi qəbul edildiyini də mənalandırır", - deyir.

Bu mənada Bakı-Tbilisi-Ceyhan neft kəmərini Azərbaycanı Gürcüstanla, Türkiyə ilə birləşdirən, "Avropa bazarlarına çıxaran nəhəng neft körpüsü"nü, borulardan quraşdırılmış iqtisadiyyat yönlü möhtəşəm körpü olan "Bakı-Tbilisi-Ərzurum qaz kəməri"ni təməli dəmir relslərdən atılmış Bakı-Tbilisi-Qars dəmir yolu «körpüsü»nü mənalandırır və "Azərbaycan məhz bu körpülərdən keçərək dünyaya, regiona inteqrasiya olunur, inkişaf edərək daha qüdrətli bir ölkəyə çevrilir", - deyir.

Azərbaycan elminin və mədəniyyətinin inkişafını, dünyada tanınmasını, Azərbaycan idmançılarının dünyada qazandıqları qələbə ilə beynəlxalq miqyasda ölkəmizin tanınmasını "ölkəmizdə bərqərar olmuş möhkəm və davamlı «körpüsalma siyasəti»nin əsas nəticələri" kimi qiymətləndirir.

Təhsil sahəsindəki yeniliklərimizi, təhsildə yer tutan Boloniya prosesinin "A-



merika və Avropa universitetləri ilə inteqrasiyaya xidmət edən körpüsalma siyasətinin düşünülmüş strategiyasının konkret bəhrə verməkdə olduğunu" təsdiqlədiyini bildirən İsa Həbibbəyli "siyasətdə və idarəetmədəki məqsədyönlü siyasəti sayəsində ölkəmizdə müxtəlif xalqların və etnik qrupların arasında da möhkəm körpülər" salındığını, böyük nailiyyətlərimizdən biri olan daxili siyasi sabitliyin də təməlində, cəmiyyət həyatında körpüsalma kimi möhkəm, davamlı və xoşməramlı siyasət dayandığını söyləyir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyəti nəticəsində Bakı şəhərini "gözəl, yaraşıqlı, abad, rahat yollar və körpülər şəhərinə" çevrildiyini, "yüksək standartlara cavab verən respublikamızın dəniz səviyyəsindən ən uca nöqtələrindən biri olan Xınalığa çətin şəraitdə" yol çəkildiyini, Naxçıvanda, Qazaxda, Oğuzda, Qəbələdə salınan körpülərin paytaxtla regionların əlaqələrini tənzimlədiyini bildirir.

Akademik İsa Həbibbəyli sözün həqiqi mənasında "müstəqil Azərbaycan Respublikası möhtərəm Prezidentimiz İlham Əliyevin həyatda və böyük siyasət sahəsində saldığı möhkəm körpülərin üzərində ucalır. Hətta indi Azərbaycan ölkəsi özü Qərblə Şərq arasında etibarlı və möhtəşəm bir körpüyə çevrilməkdədir",- fikrindədir.

"Böyük quruculuq və vətənpərvərliyinin uğurlu hesabatı"məqaləsində İsa Həbibbəyli ümummilli liderimiz Heydər Əliyevin hələ sovet hakimiyyəti illərindən çətin şəraitdə dostlaşdığı Türkiyə Cümhuriyyətinin Baş Naziri Süleyman Dəmirəllə apardığı danışıqları, bu iki böyük dövlət xadiminin etibarlı münasibətləri sayəsində bərk şaxta olmasına baxmayaraq, Kaban barajından İğdır bölgəsinə gələn elektrik enerjisinin Araliq-Dilucu-Sədərək vasitəsilə Naxçıvana çəkilməsi işinin həyata keçirildiyini, Naxçıvan Muxtar Respublikasının ərazisinin düşməndən, əhalisinin isə amansız şaxtadan xilas edilməsində bu işin "böyük dönüş nöqtəsi" olması, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin İran İslam Respublikasının rəhbərləri ilə apardığı danışıqlar sayəsində Araz Su Elektrik Stansiyasından Naxçıvana verilən enerjinin bir qədər artırılması ilə fasilələrlə olsa da əhalini müəyyən səviyyədə elektrik enerjisi ilə təmin etməyin mümkün olduğunu bildirən alim bu hadisələrə sadəcə elektrik enerjisi təminatı kimi baxmır: "O çətin, ağır, məşəqqətli günlərdə Naxçıvan əhalisinə çatdırılan elektrik enerjisi regionda qış fəslində günəşin doğması qədər qeyri-adi dərəcədə əhəmiyyətli idi. Bunlar böyük dövlət xadimi Heydər Əliyev siyasətinin işıqları idi. İnsanlar Heydər Əliyevə özxalqının günəşi kimi baxırdılar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük səyləri ilə əsası ulu öndərimiz tərəfindən qoyulmuş Naxçıvan Muxtar Respublikası ərazisinə qaz çəkilişi işinin 2005-ci ildə həyata keçirilməsi ilə regionda sabit həyatın əsası qoyulmuşdur. Bundan sonrakı dövrlərdə Azərbaycan Respublikası Prezidentinin qayğısı və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin regionda həyata keçirdiyi ardıcıl və məqsədyönlü quruculuq siyasəti sayəsində qədim diyardakı Heydər Əliyev Su Anbarında və Biləv çayı üzərində su elektrik stansiyalarının tikilib istifadəyə verilməsi, Naxçıvan modul və qaz-turbin elektrik stansiyalarının quraşdırılması ilə Naxçıvan Muxtar Respublikası nəinki elektrik enerjisi baxımından öz problemini həll etmişdir, hətta vaxtilə qardaşlıq köməyindən faydalandığı Türkiyəyə enerji ixrac etmək səviyyəsinə gəlib çata bilmişdir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 may 2012-ci ildə Naxçıvan Muxtar Respublikasına onuncu səfəri zamanı Naxçıvan-Culfa magistral avtomobil yolunun açılışı mərasimindəki nitqini («Naxçıvanda digər infrastruktur layihələr də uğurla icra edilir. Naxçıvan 100 faiz qazlaşdırılıbdır. Elektrik enerjisi ilə təchizat çox yaxşıdır. Vaxtilə zülmət içində yaşayan insanlar indi o günləri sadəcə olaraq ağır günlər kimi xatırlayırlar. Hazırda Naxçıvan elektrik enerjisi ixrac edən diyardır») "mahiyyəti etibarilə böyük bir tarixi mərhələnin ümumiləşmiş yekunu və burada 16 il ərzində görülmüş işlərə verilən böyük qiymətin ifadəsi kimi" səsləndiyini söyləyir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına diqqət və qayğını, İlham Əliyevin rəhbərliyi ilə burada aparılan geniş quruculuq işlərini, Naxçıvanda yetişmiş böyük mütəfəkkirləri qeyd edən alim Naxçıvan Muxtar Respublikasının daim Azərbaycan Respublikasının tərkibində irəliyə doğru inkişaf edəcəyinə əminliyini bildirir.

*(Davamı var)*